

# BƏDİİ KİNOMUZDA NAĞIL JANRI VƏ ONUN ƏXLAQİ KEYFİYYƏTLƏRİ

*Nağıl kinosu dedikdə ilk öncə göz önünə kiçik yaşlı tamaşaçılar üçün nəzərdə tutulmuş bədii və cizgi filmləri gəlir. Təbii ki, nağıl kinosunu təkcə uşaqlara şamil etmək düzgün deyil. Çünki nağıl bütövlükdə şifahi xalq ədəbiyyatının, əsrlərdən süzülüb gələn xalq yaradıcılığının epik nümunəsi və deməli, bədii kinoda da mühüm rola malik bir janrdır. Bildiyimiz kimi cəmiyyətdə baş verən proseslər əvvəl ədəbiyyata, sonra isə kinematoqrafiyaya keçərək lentin yaddaşına əbədi həkk olunur. Nağıl filmlərinin ərsəyə gəlməsi dolayısı ilə də olsa bu amillə bağlıdır. Yəni, nağıl müəllifin seçdiyi janrdır və o, stilistikanın həllini məhz nağıl vasitəsilə tamaşaçılara çatdırılmaqda görür.*

50-ci illərin sonunda bu sehirli aləmin qapısını Azərbaycan milli kinematoqrafiyasına açan rejissor Əlisəttar Atakişiyev (1907-1997) olmuşdur. Onun həmin dövrdən başlayaraq çəkdiyi 3 nağıl filmi sonralar neçə-neçə nəslin püxtələşməsində, onların təlim-tərbiyəsində əhəmiyyətli rol oynamış, milli kinematoqrafiyamızın nadir inciləri siyahısına daxil edilmişdir. M.H.Təhmasibin xalq nağıllarımız əsasında qələmə aldığı "Çiçəkli dağ" pyesinin motivləri üzrə rejissorun çəkdiyi "Bir qalanın sirri" bədii filmi (1959) nağıl kinomuzun ilk qaranquşu idi. Uşaqlar üçün nəzərdə tutulmuş bu dəyərli ekran nümunəsi daşıdığı dərin məna çalarlarına, obrazların xüsusiyyətlərinə görə az bir vaxtda böyüklərin də sevimlisinə çevrilmişdi. Xalqın birliyi, düzlük, mərdlik, cəsarət və bu kimi digər məsələləri ön planda qabartmağa çalışan müəlliflər əslində tamaşaçılara yüksək əxlaqi keyfiyyətlər aşılamağa müvəffəq olmuşdular. Film bütün nağıllarda olduğu kimi xeyrin şər üzərində qələbəsi ilə nəticələnir və sonda müəlliflər miflə reallıq arasında bir bağlantı yaradır; yəni nağılın qəhrəmanları olan Elşən və Mətanət müasir dövrümüzün əməksevərləri kimi təsvir olunurlar. Çünki halal əmək insanların birlik, dostluq və sədaqət rəmzidir. Azərbaycan teatr və kino sənətinin ən görkəmli nümayəndələrindən olan Ağahüseyn Cavadov (falabaxan), Ağadadaş Qurbanov (usta), Əli Zeynalov (Simnar xan), Gündüz Abbasov (Elşən) və digərlərinin yaratdıqları zəngin ifa tərzləri bütövlükdə filmin uğuruna dəlalət edir.

Ə.Atakişiyevin bu janrda ikinci filmi hələ ötən il sevə-sevə 40 yaşını qeyd etdiyimiz "Sehirli xalat" macəra - nağıl filmi idi. (ssenariçilər Ə.Atakişiyev, A.Tarasov) Bəli, çox vaxt "Sehirli xalat"ı təkcə macəra janrının nümunəsi kimi xarakterizə edirlər. Amma real yanaşdıqda görürük ki, "Sehirli xalat" nağıldır, özü də müasir nağıl. Şəxsi qənaətimə görə burada müəllifin haradasa dərin qatlarda "gizlənmiş" epik təhkiyyəsi aydın hiss olunmaqdadır. Keçmişlə gələcəyin astanasında təqdim olunan o dövrün müasirləri - 60-cı illər nəsli, bir neçə yüz il bundan əvvəl hökm sürmüş feodal quruluşu və adi günlərdə belə aya səyahətə çıxmaq imkanına malik olan gələcəyin insanı "Sehirli xalat"ın ana xəttində dayanır. Çünki bu üç dövr arasında əlaqə yaradan amil illüzüonist - nağılçı İokiyo babanın özü ilə gətirdiyi sehirli xalatdır. İokiyo baba xalatın imkanlarından söz açanda ağıllı pioner Rəşid ona inanmır və xalatın heç bir sehrə malik olmadığını isbat etmək üçün onu geyinərək rişxənd etdiyi sehirli sözləri deyir. Bütün əhvalat da elə buradan başlanır, xalat Rəşidi gah keçmişə, xan hakimiyyətinin hökm sürdüyü dövrə, gah da ay gəmisinə - gələcəyə aparır. İstər keçmişdə, istərsə də gələcəkdə Rəşid özünü, həmin dövrün təbirincə desək, əsil mərd, yenilməz pioner kimi aparır, hiyləgər xana təslim olmur. Əslində bütün bunlar həm də sovet insanı haqqında mifik təfəkkür formalaşdırmaq məqsədi güdürdü. Lakin bununla belə "Sehirli xalat" daşıdığı saf və təmiz ruhuna görə bu gün də tamaşaçılar arasında ən populyar Azərbaycan filmlərindən olaraq qalmaqdadır. Burada zəmanəmizin görkəmli bəstəkarı Arif Məlikovun "Sehirli xalat" üçün bəstələdiyi, insan ruhunu oxşayan əsrarəngiz musiqini, görkəmli sənətkarlarımızdan Möhsün Sənani, Ağahüseyn Cavadov, Əliağa Ağayev və digərlərinin ustalıqla yaratdıqları obrazları da xüsusi vurğulamaq yerinə düşərdi.

Ə.Atakişiyevin yaratdığı sonuncu nağıl filmi 1977-ci ildə lentə aldığı "Qərib cinlər diyarında" idi. Qeyd etmək istərdik ki, bu həm də onun kinoda son fəaliyyəti olmuşdur. Vətənə məhəbbət, heç bir var - dövlətin insana öz doğma torpağından əziz olmaması ideyası üzərində qurulan filmin qəhrəmanı Qərib cinlər diyarından gələn quşun tərkində öz obasından ayrılır və bu qəribə məxluqların yaşadığı qeyri-adi məkana düşür. Cinlər ölkəsində varlanmaq məqsədi güdən Qərib bir müddət burada cinlərin mənfəəti üçün işləyir; torpağı şumlayır, taxıl əkir, çörək bişirir və beləcə xeyli sərvət toplaya bilir. Amma tezliklə başa düşür ki, qazandığı bu pullardan da ona doğma və əziz olanı vətəni, doğma anası, sevgilisi və yaxınlarıdır. Sonda öz ağlı, dərrakəsi hesabına, min bir əziyyətlə cinlər diyarından xilas olaraq öz kəndinə qayıdan Qərib bir daha bu fikri təsdiq edir.

Filmdə mifoloji mühiti təsvir etmək üçün bu gün müasir kompüter qrafikasının köməyi ilə asanlıqla əldə etdiyimiz, həmin dövrdə isə neçə-neçə zəhmətkeş kino xadiminin əməyi hesabına başa gələn pirotexniki vasitələrdən, müxtəlif quruluşlu maketlərdən, quraşdırılmış çəkilişlərdən istifadə olunmuşdur. Bunu digər nağıl filmlərimizə də aid etmək olar.

70-ci illərin sonlarında "Azərbaycanfilm" kinostudiyasında daha bir nağıl filmi istehsal olundu. Bu, dostluq, sədaqət kimi dəyərli anlamları özündə birləşdirən iki seriyalı "Şir evdən getdi" nağıl filmi idi. Yuri Yakovlevin ssenarisi üzrə rejissor Rasim İsmayılovun lentə aldığı bu ekran əsərində uşağın şirlə dostluğundan bəhs edilir. Belə ki, doğma vətəni Afrikaya qayıtmaq istəyən şirə filmin qəhrəmanı balaca Rüstəm kömək etməyə çalışır. Bundan sonra isə Rüstəmlə şir müxtəlif əhvalatların həm şahidinə, həm də iştirakçısına çevrilirlər. "Şir evdən getdi" nağıl alleqoriyadır, yəni şirdən başqa zürafə, zebr və digərləri də dil açıb danışır (bu rolları da aktyorlar ifa edirlər), öz hisslərini, arzularını büruzə verirlər. Bu isə artıq müəlliflər tərəfindən düşünülmüş (burada ssenariçi ilə bərabər rejissorun da əməyi az deyil) orijinal yozumdur. "Şir evdən getdi" sırf televiziya üçün işlənmiş filmdir. Burada məşhur aktyorlardan mərhum Susanna Məcidova, Yaşar Nuri, Sergey Yurskiy, Şükufə Yusupova və digərləri yadda qalan obrazlar yaratmışlar. Balaca Rüstəm rolunda isə Elxan Cəfərov çəkilmişdir.

Əgər 80-ci illərdə cəmi iki nağıl filmi çəkilmişdisə, 90-cı illərdən başlanan maliyyə böhranı ümumiyyətlə nağıl filmlərinin istehsalatdan sıxışdırılıb çıxarılmasına səbəb oldu. 80-cı illərdə istehsal olunan nağıl filmləri bunlar idi: rejissor Tofiq İsmayılovun "Əzablı yollarla" və rejissor Oqtay Mirqasımovun "Cin mikrorayonda" bədii filmləri. "Əzablı yollarla" bədii filminin (1982) ssenarisini Oqtay Məmmədov "Məlikməmməd" xalq nağılının motivləri üzrə işləmişdi. Burada əsas məsələni xeyirlə şərin mübarizəsi və birincinin ikinci üzərində qələbəsi təşkil edir. Belə ki, başlarını müxtəlif əyləncələrə qatan üç qardaş – Xanməmməd, Şahməmməd və Məlikməmməd birləşərək şər qüvvələr hökmdarı Qarayeli məğlub edir və divlərin oğurladığı üç qızıl almanı tapıb gətirirlər. Film həm də musiqili komediyadır. Burada üç qardaş

div rollarını görkəmli komediya ustaları Səyavuş Aslan, Yaşar Nuri və mərhum Eldəniz Zeynalov yaratmışlar. Onların ara-sıra oxuduqları musiqi parçaları (bəstəkar Tofiq Quliyev) isə filmin ən uğurlu epizodlarından hesab olunmalıdır. Təsadüfi deyil ki, "Əzablı yollarla" amerikan prodüsserlərinin seçərək nümayiş etdirdikləri 17 ən yaxşı film siyahısına daxil edilmişdi.

Nağıl kinomuzun sonuncu nümunəsi 1985-ci ildə rejissor Oqtay Mirqasımovun çəkdiyi "Cin mikrorayonda" musiqili filmidir. Düzdür, bu film əslində bir sıra məziyyətlərinə görə nağıl janrından fərqlənir, lakin əgər nəzərə alsaq ki, filmin baş qəhrəmanı cindir və o, cin qohum-əqrabasından ayrılaraq yer kürəsinə gəlir, daha doğrusu, cinlər padşahı Süleyman İbn Davud onu lampada yer kürəsinə, insanların arasına göndərir. Cinsə sosial problemlər dolu olan bir ölkəyə - Azərbaycana düşür. O,sehirli lampanı taparaq onu azad etdiyinə görə korrektor Rüstəmin bütün arzularını həyata keçirir. Amma Rüstəm bütün bunları özü şəxsən, kimsənin köməyini hiss etmədən nail olmaq istəyir. "Cin mikrorayonda" müasir dövrümüzün çətinlikləri haqqında böyüklər üçün nəzərdə tutulmuş nağıldır. Filmin əsas ideyası budur ki, bütün arzuların gerçəkləşməsi insanda olan guclu istəkdən asılıdır. Çünki insan cindən də ağıllı və güclüdür. Filmdə cin rolunu Rəşid Mahmudzadə, Rüstəmi isə Ötgəm İsgəndərov ifa edirlər. Bəstəkar Rafiq Babayevin bir-birindən maraqlı, rəngarəng musiqiləri isə ekran əsərinə xüsusi örnək verir.

Azərbaycan kinematoqrafiyasında nağıl filmlərinin sayı çox azdır, buna baxmayaraq onların hər biri kino tariximizə öz dəyərli töhfələrini vermiş və bu gün də verməkdədirlər.

**Kamran QASIMOV,**
**Azərbaycan Professional Kinorejissorlar Gildiyasının üzvü**